UOT 32

**Günel MƏLİKLİ**
*s. e. ü. f. d.*

# AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL İNKİŞAFIN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ HƏYATA KEÇİRİLƏN SOSİAL SİYASƏT *

## GİRİŞ

Müstəqillik əldə etdikdən sonra ölkəmiz qısa dövr ərzində çox böyük inkişaf yolu keçmişdir. Bu inkişaf cəmiyyətin siyasi, sosial-iqtisadi, mədəni və s. sahələrində özünü göstərməkdədir. Dövlətin daha çox diqqət yetirdiyi sahələrdən biri olan sosial sahədə böyük uğurlar əldə edilmişdir. Bu, dövlətin müəyyən etdiyi sosial siyasətin uzaqgörən xarakteri ilə ölçülür. Ümumiyyətlə, sosial siyasət, onun məqsədləri, həyata keçirilmə vasitələri müxtəlifdir. Sosial siyasət əhalinin mənafeyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər sistemi olub, mürəkkəb xarakterə və struktura malikdir. Həyata keçirilən sosial siyasət cəmiyyətin bütün sahələrinin inkişafını nəzərdə tutur və bu sahələrdə olan problemlərin aradan qaldırılmasında ədalətlilik, bərabərlik prinsiplərinə əsaslanır. Qeyd etmək lazımdır ki, hal-hazırda hər bir dövlətin həyatında sosial siyasətin həyata keçirilməsi mühüm yer tutur. Dünya ölkələrinin, əsasən də inkişaf etmiş Avropa ölkələrinin həyata keçirdiyi sosial siyasət tədbirləri nəticəsində əhalinin həyat səviyyəsi yüksəlmiş, sosial müdafiəsi daha da gücləndirilmişdir. Bu sahədə inkişafa nail olmaq üçün sosial siyasətin elmi və nəzəri tərəflərini araşdırmaq, obyekt və subyektini müəyyən etmək, onlar arasındakı əlaqəni aydınlaşdırmaq, eyni zamanda inkişaf etmiş dövlətlərin sosial siyasət modellərini müqayisə etmək, onlardan bəhrələnərək ölkəmizin sosial həyatına tətbiq etmək lazımdır.

Sosial siyasətin ən əsas məqsədi cəmiyyətin həyatında sosial tarazlığı qorumaq, rifah səviyyəsinin yüksəlməsinə nail olmaqdan ibarətdir. Bu məqsədlərin həyata keçirilməsi üçün dövlət aşağıdakı konkret tədbirləri həyata keçirir:

- güclü sosial müdafiə və sosial təminat sisteminin qurulması;
- ərzaq təhlükəsizliyini təmin etməklə böhran, müharibə və s. bədbəxt hadisələr zamanı aclığın yaranmasının qarşısının alınması;
- vətəndaşların tibbi tələbatlarının ödənilməsi, xəstəliklərin qarşısının alınması;
- baş vermiş təbii və digər fəlakətlərin qarşısının alınması;
- vətəndaşların həyat səviyyəsinin qorunub saxlanılması üçün maddi vəsaitlərin ayrılması, sosial gərginliyin azaldılması.

Vətəndaşların sosial vəziyyətinin, həyat şəraitinin yaxşılaşdırılması, insanların sosial təminat hüquqları qanunvericilikdə də öz əksini tapmışdır. Belə ki, ölkə konstitusiyasının 16-maddəsində qeyd edilmişdir: "Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır". Bundan əlavə, Konstitusiyanın 38-ci maddəsində insanların sosial təminat hüququ təsbit edilmişdir. Həmin maddədə qeyd olunur: "Hər kəsin sosial təminat hüququ vardır. Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, işsizliyinə görə və qanunla nəzərdə tutulmuş digər hallarda təminat hüququna malikdir". Digər qanunlarda təqaüdlər, müavinətlər, sosial-sığorta, sosial təminatın digər növləri və s. barədə müddəalar öz əksini tapmışdır.

---

* Məqalə fəlsəfə ü.f.d., dosent Azər Şirinov tərəfindən çapa məsləhət görülüb.

Demoqrafik xidmət, səhiyyə, sosial təminat, idmanın təbliği kimi sahələr bir tərəfdən sosial siyasətin yerdəyişməsi (differensiasiya) istiqamətinin həyata keçirilməsinə zəmin yaradır, digər tərəfdən həyat tərzi, həyat səviyyəsi, həyat keyfiyyəti və s. barədə hökumətə informasiya verilməsini təmin edir [1.99].

Azərbaycan Respublikasının qanunverici orqanı olan Milli Məclisin müxtəlif komitələri ölkədə sosial inkişaf, məşğulluq, insanların, xüsusilə qaçqın və məcburi köçkünlərin sosial problemləri, ailə, qadın və uşaq məsələləri, gənclər, bədən tərbiyəsi və idman, turizm, səhiyyə, sanitariya, sosial təminat və sığorta sahələri üzrə, sağlamlığın mühafizəsi sahəsində dövlət siyasətinin formalaşdırılmasına aid qanun layihələri hazırlanır və ya müxtəlif orqanlar tərəfindən hazırlanıb Milli Məclisə müzakirə üçün təqdim olunmuş qanun layihələrini müzakirəyə çıxarır, onlara rəy verir. Bu cür layihələrə hal-hazırda icra edilən "Gənc ailələrin sosial müdafiəsi", "Ailə həkimi" və s. aiddir. Belə tədbirlər çərçivəsində "Milli Qanunvericilikdə uşaq hüquqları: reallıqlar və perspektivlər" mövzusunda sosial siyasət komitəsi Avropa İttifaqının maliyyə-ləşdirdiyi "Uşaqların xilası" beynəlxalq təşkilatla birgə müzakirə keçirmişdir. Bu müzakirələrdə məqsəd Qanunvericilikdə uşaq hüquqlarının daha da genişləndirilməsi, bu sahədə müxtəli normativ aktların və qanunların işlənib hazırlanmasıdır. Bunlardan başqa, "Reproduktiv sağlam-lıq haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında", "Siqaretçəkmənin məhdud-laşdırılması haqqında" və digər qanun layihələri də hazırlanmış və həyata keçirilməkdədir. Qeyd edilən sahələrdə qanunlar qəbul edilməsi ölkədə əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına istiqamətlənmiş addımlardır.

Eyni zamanda vətəndaşların həyat səviyyəsini yüksəltmək məqsədilə yoxsul ailələrə, aztəminatlı təbəqələrə sosial yardımlar verilməsi, bir sözlə, ölkədə yoxsulluğun qarşısını almaq məqsədilə müxtəlif qanunlar qəbul edildi. Məqsəd birmənalı olaraq ölkədə vətəndaşların firavan yaşamasına nail olmaq idi.

2002 - ci ildə ölkədə yoxsulluğun səviyyəsi 46,7 faiz təşkil edirdisə, ulu öndər Heydər Əliyevin 20 fevral 2003-cü ildə təsdiq etdiyi "2003-2005-ci illər üçün Azərbaycan Respub-likasında yoxsulluğun azaldılması və iqtisadi inkişafı üzrə Dövlət Proqramı" nın həyata keçirilməsi nəticəsində 2005-ci ildə bu rəqəm 29,3 faizə endi. Növbəti illər ərzində bu proqramın davam etdirilməsi nəticəsində 2007 – ci ildə ölkədə yoxsulluğun səviyyəsi 15,8 faizə endi.

Bununla bağlı önəmli məqamlardan biri də 2005-ci il may ayının 12-də Bakıda yoxsul-luğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramının icrasına dair keçirilən illik konfransda Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər oldu: "Azərbaycanda heç kim yoxsulluq şəraitində yaşamamalıdır. Yoxsul insan olmamalıdır" [2.s.113 ].

Daha sonra Prezident İlham Əliyevin 2005-ci ildə "Ünvanlı dövlət sosial yardım haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə sərəncamı bu sahədə görülən işləri daha da sürətləndirdi. Qanuna əsasən sosial yardım almaq üçün müraciətlər, onların araşdırılması və yardımların verilməsi prosesi daha da təkmilləşdirildi. 2006-ci ildə isə aztəminatlı ailələrin ünvanlı sosial yardımla təmin olunması barədə prezident sərəncamı qüvvəyə mindi.

Aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımı ailənin gəliri ilə ehtiyac meyarının arasında olan fərq həcmində hesablanır. 2012-ci ildə Azərbaycan Respublikası vətəndaşlarının ehtiyac meyarı 84 manat məbləğində müəyyən edilmişdir. Ümumiyyətlə, vətəndaşların ehtiyac meyarı şərti olaraq götürülür və bu meyar müəyyən bir vaxtdan sonra ölkə üzrə yaşayış minimumuna bərabər olmalıdır. Vətəndaşların layiqli həyat səviyyəsinə nail olmaq üçün mütləq yaşayış minimumu ödənilməlidir. İnsanların yaşayış səviyyəsini yüksəltmək isə dövlətin ali məqsədi olmaqla, sosial siyasətin prioritet əsasını təşkil edir.

Bu gün ölkəmizdə gedən sürətli inkişaf vətəndaşlara yaşayış minimumu səviyyəsində ünvanlı sosial yardımların verilməsinə geniş imkanlar açmışdır. Dövlət büdcəsində sosial sahənin

inkişafına ayrılan vəsaitlər də ildən-ilə artırılır. Çünki ünvanlı sosial yardımların verilməsi yoxsulluğun aradan qaldırılmasında ən effektiv mübarizə vasitələrindən biridir.

Ünvanlı sosial yardım üçün müraciət edən ailələrin maddi vəziyyəti tam araşdırılmalıdır və ailənin işləməyən üzvlərinin məhz hansı səbəbdən işləmədiyi öyrənilməlidir. Bundan əlavə, ailənin əmək qabiliyyəti olmayan üzvlərinin sayı dəqiqləşdirilməli, əmək qabiliyyətli olan üzvlərinin isə işlə təmin edilməyi üçün məşğulluq orqanlarına müraciət edilməlidir. Bütün araşdırmalar aparıldıqdan sonra ailənin ehtiyac meyarı müəyyən edilməlidir.

Qeyd etmək lazımdır ki, bu sahədə bəzi problemlər də mövcuddur. Belə ki, bəzən insanlar normal həyat şəraitinə malik olsalar da, özlərini aztəminatlı kimi təqdim edərək sosial yardımlardan yararlanmağa çalışır və hətta yardım ala bilirlər. Buna görə dövlətin bir sıra qurumları arasında informasiya mübadiləsi daha da intensvləşdirilməlidir. Əsasən də Dövlət Sosial Müdafiə Fondu, Vergilər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əlaqələr daha sıx şəkildə qurulmalıdır ki, ünvanlı sosial yardım üçün müraciət edənlərin araşdırılması zamanı maddi vəziyyəti barədə bu qurumlar bir-birini məlumatlandıra bilsinlər. Belə olan təqdirdə sui-istifadə etmək istəyən vətəndaşların cəhdlərinin qarşısı vaxtında alınar, büdcədən bu məqsədlə ayrılan vəsaitlər tam təyinatı üzrə sərf edilər.

Eyni zamanda dövlət sosial siyasətin həyata keçirilməsində əsas rol oynayan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inkişafına da diqqət göstərir. Belə ki, 2010-cu il iyunun 10-da nazirliyin inzibati binası yenidənqurma işlərindən sonra yenidən istifadəyə verildi. Nazirlik Avropa standartlarına cavab verən ən son texnologiyalarla təchiz edilmişdir. Açılışda Prezident İlham Əliyev də iştirak etmişdir.

Ümumiyyətlə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aşağıdakı mühüm sosial siyasət tədbirlərini həyata keçirir:

- əmək və məşğulluq
- sosial müdafiə və pensiya təminatı
- demoqrafiya siyasəti
- işsizliyin aradan qaldırılması
- sosial hüquqların qorunması və s.

Sosial siyasətin əsas məqsədi demokratik cəmiyyətdə yoxsulluğun, təzadların aradan qaldırılması, yüksək həyat səviyyəsinə malik olan, sosial münaqişələrin olmadığı cəmiyyətin formalaşdırılmasıdır. Əlbəttə ki, bunların hamısı yüksək iqtisadi inkişafın fonunda baş verməlidir. Cəmiyyətin sosial həyatında baş verən dəyişikliklər ölkədə gedən iqtisadi inkişafın nəticəsi kimi meydana çıxır, əhalinin rifah halının yüksəldilməsinə müsbət təsir edir. Sosial cəhətdən inkişaf etmiş cəmiyyət eyni zamanda vətəndaşların fiziki və mənəvi sağlamlığına, əmək fəaliyyətinə, bir sözlə, bütün həyatına müsbət təsir göstərir.

Azərbaycan Respublikası 1991-ci ildə öz suverenliyini bərpa etdikdən sonra ölkəmizin qədəm qoyduğu keçid dövrü yeni ictimai-siyasi, sosial-iqtisadi münasibətlər formalaşdırdı. Bütün sahələrin inkişafını nəzərdə tutan islahatların həyata keçirilməsinə başlanıldı. Torpaq islahatı, özəlləşdirmələrin həyata keçirilməsi, sosial müdafiə sisteminin təkmilləşdirilməsi bu tədbirlərə aiddir.

Sosial siyasətin həyata keçirilməsi prosesləri fonunda mədəni sahənin də inkişafı vacibdir. Belə ki, sosial siyasət vətəndaşların həyat şəraitinə də birbaşa və əhəmiyyətli dərəcədə təsir edir, insanların mədəni səviyyəsinin formalaşmasında yaxından iştirak edir. Bundan əlavə cəmiyyətin üzvləri arasında qarşılıqlı münasibətlərin formalaşması onlar arasında sosial həmrəyliyin yaranmasına səbəb olur. Bütün bunların həyata keçirilməsi, mədəniyyət sahəsində mövcüd vəziyyətin saxlanılması və daha da inkişaf etdirilməsi, təkmilləşdirilməsi üçün bu sahənin daim dövlət nəzarətində olması, büdcə tərəfindən maliyyələşdirilməsi vacibdir. Böhran və ya iqtisadi durğunluq dövründə belə, büdcə proqramının təsdiqi zamanı bu istiqamətə ayrılan xərclər

mümkün qədər aşağı salınmamalıdır.

Hal-hazırda ölkəmizdə bu sahənin inkişafına ciddi diqqət yetirilir və dövlət tərəfindən qayğı göstərilir. Bu sahədə Ümumilli liderimizin adını daşıyan Heydər Əliyev Fondunun gördüyü işlər əvəzsizdir. Fond təhsil, mədəniyyət, incəsənət və s. bu kimi sahələrdə böyük layihələr həyata keçirir. Hər il onlarla məktəblərin, muzeylərin və s. obyektlərin inşası buna əyani misaldır.

Sosial siyasətin tərkib hissələrindən biri cəmiyyət üzvlərinin sağlamlığının qorunmasıdır. Bu məqsədlə ümumi dispanserləşdirmə həyata keçirilməli, tibbi xidmətin səviyyəsi əsaslı şəkildə yüksəldilməli, səhiyyə müəssisələrinin dərman, müasir diaqnostika və müalicə avadanlığı, tibb texnikası ilə təchizatı yaxşılaşdırılmalı, müəssisələrin sanatoriya-profilaktoriya şəbəkəsi genişləndirilməlidir [3, s. 248].

Dövlət səhiyyə sisteminin qurulması üçün bir sıra istiqamətlərdə müəyyən tədbirlər həyata keçirir ki, bunlara dövlət hesablı səhiyyə xidmətinin saxlanılması, vətəndaşların tibbi sığorta ilə təmin olunmasının tətbiqi və s. bu kimi tədbirlər daxildir. Ümumiyyətlə, səhiyyənin sahəsinin inkişafı həyata keçirilən sosial siyasətin səmərəliliyi baxımından çox vacibdir.

Sosiologiya üzrə alimlər və digər analitiklər ən azı 1970-ci ildən başlayaraq tibbi xidmətin genişlənməsi zərurəti haqqında yazmışlar. [4 s.3]

Qeyd etmək lazımdır ki, Azərbaycanın uzun müddət Sovet İttifaqında olması səhiyyə sisteminin sovet qanun və qaydaları əsasında formalaşmasına səbəb olmuşdur. Ümumiyyətlə, XX əsrin ortalarına kimi sosial siyasət sahəsində sovet modeli müəyyən üstünlüklərə malik olmuşdur. Bu üstünlüklər səhiyyə, sosial sığorta və s. sahədə özünü göstərirdi. Səhiyyənin dövlət tərəfindən maliyyələşdirilməsi və idarə olunması, tibbi kadrların hazırlanması, tibb elminin inkişafı müsbət nəticələr vermişdir.

1991-ci ildə müstəqilliyin bərpasından sonra səhiyyə sistemində də müəyyən problemlər meydana gəldi. Bu, sosial siyasətin zəifliyi nəticəsində üzə çıxan ümumi çatışmazlıqlar idi ki, onları aşağıdakı kimi qruplaşdırmaq olar:

- əhalinin ümumi sağlamlıq vəziyyətinin aşağı olması və müxtəlif səbəblərdən ölüm hallarının, xüsusən də uşaq ölümlərinin çoxalması;
- ümumi böhran vəziyyətinin fonunda səhiyyə sisteminə büdcədən ayrılan vəsaitin aşağı olması;
- Sovet dövründən qalan xəstəxanaların, müalicə müəssisələrinin bərbad vəziyyətdə olması və beynəlxalq standartlara cavab verməməsi;
- səhiyyə ocaqlarında istifadə olunan avadanlıqların köhnə və istifadəyə yararsız olması, yenisi ilə əvəz edilməməsi;
- səhiyyə sahəsində beynəlxalq standartlara cavab verən yeni texnologiyaların, müalicə vasitələrinin, dərman preparatlarının tətbiq olunmaması;
- yeni tibbi kadrların hazırlanmasına diqqətin yetirilməməsi, vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətli olmaması;
- tibb işçilərinin əməkhaqlarının az olması.

Bütün bu çatışmazlıqların yaratdığı problemlər səhiyyə sahəsində islahatların aparılması və bu istiqamətdə konkret tədbirlərin görülməsi zərurətini ortaya çıxardı.

Bu gün ölkəmizdə səhiyyə sahəsinin inkişafı üçün bir sıra islahatlar aparılır, layihələr gerçəkləşdirilir. Həyata keçirilən islahatlar əsasən aşağıdakıları əhatə etməlidir:

1. Cəmiyyət üzvlərinin sağlamlığının qorunması istiqamətində görülən işlərin effektivliyini artırmaq üçün həm tibb xidmətindən istifadə edən vətəndaşlar üçün, həm də tibb xidməti göstərən səhiyyə işçiləri üçün sosial-iqtisadi imkanlar genişləndirilməlidir.
2. Cəmiyyətdə tibbi xidmət bazarını yaratmaq və rəqabəti formalaşdırmaq lazımdır.
3. Müalicə üçün tibb müəssisəsini və həkimi seçməkdə vətəndaşlara azad seçim hüququnu

verilməsini təmin etmək lazımdır.

Ulu öndərin hakimiyyətə qayıdışından sonra onun həyata keçirdiyi islahatlar səhiyyə sahəsində də öz bəhrəsini verməyə başladı. Qısa zaman kəsiyində ölkə boyu səhiyyə ocaqlarında yenidənqurma işlərinə başlanıldı. Ölkənin bütün regionlarında diaqnostika mərkəzləri tikildi və yüksək avadanlıqlarla təchiz edildi Bu sahədə dövlətin reallaşdırdığı layihələr nəticəsində yüzlərlə peşəkar həkimlər, tibb bacıları yetişdirildi və bir vaxtlar mövcud olan həkim çatışmazlığı problemi tamamilə aradan qaldırıldı. Səhiyyə sistemində həyata keçirilən islahatlar nəticəsində vətəndaşlara tibbi sığorta müqavilələri əsasında xidmət göstərən səhiyyə müəssisələri eyni zamanda vətəndaşların rəylərini nəzərə alan sığorta cəmiyyətləri kimi çıxış etməyə başladılar. Bu müəssisələrin fəaliyyəti səhiyyə bazarında rəqabət prinsipnin formalaşmasına imkan yaratmağa başladı. 2003-cü ildə Ulu öndərimizin siyasi kursunun layiqli davamçışı İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Hazırda cənab Prezident ümumilli liderimizin demokratik və dünyəvi dövlət quruculuğu istiqamətində olan siyasi kursunu layiqincə davam etdirməkdədir. Belə ki, onun rəhbərliyi ilə dövlətin siyasi, sosial-iqtisadi, hərbi qüdrəti gündən-günə artır, ölkəmiz sürətlə inkişaf edir.

İlham Əliyevin dəyərlər sistemində dövlət birinci yerdədir və bu, şəxsiyyət dəyərlərini istisna etmir. Bizim şəraitimizdə bu, götür-qoy edilmiş yoldur. Zəif cəmiyyətə malik dövlət güclü demokratik dövlət ola bilməz. Dövlət maşınını ətalətdən, dövlət aparatını durğunluqdan, şəxsiyyəti isə hakimiyyətin qanunsuz hərəkətlərindən ancaq cəmiyyətin mükəmməl həyatı qoruya bilər [5, s. 64].

Müstəqillik əldə etdikdən sonra dövlətimizin inkişafına böyük qayğı göstərdiyi sahələrdən biri də təhsil və elm sahəsidir. Bu dövrdə əsasən aşağıda qeyd etdiyimiz məsələlər ön plana çəkilir:

- təhsil modelinin elmi tədqiqatlara daha da üstünlük verən yeni və səmərəli modellə əvəz edilməsi;
- kadrların ixtisas və peşə təhsilinin stimullaşdırılması;
- təhsil sahəsində qeyri-dövlət sisteminin yaradılması və formalaşdırılması;
- təhsilin dövlət tərəfindən himayəsinin daha da gücləndirilməsi.

Təhsil sisteminin yeni iqtisadi modelinin həyata keçirilməsində aşağıdakı prinsiplərə əməl etmək vacibdir:

- dövlətin təhsil sahəsində idarəetməyə nəzarətinin gücləndirilməsi;
- ölkə daxilində yerli və regional amilləri nəzərə almaqla vahid təhsil siyasətinin həyata keçirilməsi, təhsilin normal inkişafı üçün maliyyə təminatının gücləndirilməsi;
- böhran zamanı dövlətin təhsilə zəmanətli təminat verməsi, böhran dövründə zəmanətli dövlət təminatının saxlanılması;
- elm və təhsil obyektlərinə elmi və təsərrüfat azadlığının verilməsi;
- təhsil sahəsinə imtiyazların və vergi güzəştlərinin tətbiqi;
- qeyri-dövlət elm və təhsil müəssisələrinin inkişafına şəraitin yaradılması;
- özəl təhsil sahələri ilə yanaşı dövlət müəssisələrində də ödənişli təhsil xidmətinin inkişafı;
- dövlət hesabına təhsil alan tələbələrə verilən təqaüdlərin minimum əmək haqqı səviyyəsində ölçülməsini təşkil etmək;
- tələbələrə müəyyən bir müddətdən sonra geri ödəmək şərtilə əlavə təqaüd almaq imkanının yaradılması.

Təhsil sisteminin səmərəliliyi aşağıdakı ziddiyyətlərin həlli ilə bağlıdır:

-cəmiyyətin ictimai tələbatı ilə ümumi və peşə təhsilinin səviyyəsi və keyfiyyəti arasındakı ziddiyyətlər;

-istehsalın artan tələbatı ilə gənclərin sosial-peşə yönümü arasındakı ziddiyyətlər;

-şəxsiyyətin zəruri inkişaf səviyyəsi ilə məzunların ümumi inkişafının real səviyyəsi arasındakı ziddiyyətlər. [3 s.266]

Bütün bu tədbirlər təhsil sisteminin gücləndirilməsi, ölkədə elm potensialnın artırılmasında böyük rol oynayır. Təhsil sahəsində görülən işlərdən danışarkən Prezident İlham Əliyev demişdir: “Biz iqtisadi potensialımızı intellekt kapitalına çevirməliyik”. Həqiqətən də bu gün ölkəmizdə elmin və təhsilin inkişafına yüksək qayğı göstərilir.

Ölkəmizin sosial iqtisadi inkişafında sahibkarlıq fəaliyyətinin rolundan bəhs edərkən ümumilli liderimiz demişdir:

“Demək olar ki, indi bizim sosial-iqtisadi inkişafımız sahibkarların fəaliyyətindən asılıdır. Çünki əgər iqtisadiyyat özəlləşdirilibsə, yaxud onun böyük bir hissəsi özəlləşdirilibsə, demək, iqtisadiyyatın böyük bir hissəsi sahibkarların əlindədir və onların səmərəli işləməsi Azərbaycanın iqtisadiyyatının inkişafını təmin edən amildir. Ona görə də biz buna dövlət siyatəmizin böyük bir hissəsi kimi baxırıq” [6, s.7].

Bu illərdə Respublika Prezidenti İlham Əliyevin qayğısı və köməkliyi ilə regionlarda fəaliyyət göstərən iş adamlarının, istehsalçıların maariflənməsi, qabaqcıl təcrübələrə yiyələnməsi, onların informasiya sistemləri ilə təmin olunmasında böyük imkanlar yaradılmışdır [7 s. 111].

Sosial sahənin inkişafında sığorta sisteminin də rolu böyükdür. Bu gün sığorta xidməti bazarında dinamik inkişaf gedir və bu sahədə effektiv tədbirlər görülür.

Sığorta- qəza, fəlakət, oğurluq və s. hadisələr nəticəsində itkiyə məruz qalmış şəxsi əvvəli vəziyyətinə qaytaran və ya maddi zərəri minimuma endirən vasitədir. İnkişaf etmiş ölkələrdə insanlar bu mexanizmdən artıq uzun illərdir ki, bəhrələnirlər[8].

Sığorta icbari və ya könüllü olaraq həyata keçirilir. Könüllü sığorta fiziki və ya hüquqi şəxslə sığorta edən arasında bağlanan müqavilə əsasında həyata keçirilir. Bu, müəssisələrin və ya vətəndaşların gəlirləri hesabına olur. İcbari sığorta isə dövlət tərəfindən qanunvericilik əsasında şəxslərin sığorta edilməsidir. İcbari sığorta büdcə hesabına həyata keçirilir. İcbari sığorta aşağıda qeyd etdiyimiz hallarda vətəndaşlara vurulan zərərə görə tətbiq edilir:

- yüksək təhlükə riskinin olduğu müəssisələrdə dəyən zərərə görə (təhlükəli istehsal sahələrin, radioaktiv şüa mənbələrinin olduğu müəssisələr və s.)
- istehsalat qəzaları nəticəsində dəyən zərərə görə və s.

Sığorta sisteminin möhkəmləndirilməsi üçün əhalinin bu sahəyə inamını artıran tədbirlərin həyata keçirilməsi, etibarlı sığorta sisteminin yaradılması mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, dövlət sosial və pensiya sığortasının inkişafını daha da sürətləndirməli, bu sahədə islahatları dərinləşdirməlidir.

Sosial siyasətin mühüm elementlərindən biri də sosial sığortadır. Sosial sığorta — nəzərdə tutulmuş hallarda fiziki şəxslərin itirilmiş əməkhaqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat formasıdır. Sosial sığorta hadisəsi elə bir haldır ki, onun baş verməsi ilə sığorta olunanın sığorta təşkilatından sığorta ödəniş almaq hüququ yaranır [9].

Azərbaycan Respublikasında sosial sığorta tədbirlərini Dövlət Sosial Müdafiə Fondu həyata keçirir. Fondun 2011-ci il məlumatına görə, 160523 nəfər sığorta edilən vətəndaşa fərdi uçot hesabı açılmışdır. Dövlət Sosial Müdafiə Fondunun sədri Səlim Müslümovun sözlərinə görə, dünya ölkələrinin göstəricilərinə əsasən ölkədə sığorta olunanların sayı azdır. Buna görə də sığorta olunanların sayının artırılması üçün Fond müxtəlif istiqamətdə məqsdəyönlü tədbirlər həyata keçirir. Bunun üçün qərara alınmışdır ki, bütün qurum və təşkilatlar əməkhaqqı fondu və digər müvafiq məlumatları Dövlət Sosial Müdafiə Fonduna təqdim etməlidir. Bundan sonra işçilərin dəqiq uçotu aparılır, əməkhaqqı fondu qeydiyyata alınır və nəticədə vətəndaşların sosial sığortaya cəlb olunmasına şərait yaranır.

Əhalinin mənzil-kommunal şəratinin yaxşılaşdırılması da sosial siyasətin əhatə etdiyi

sahələrdən biridir. Dövlətimiz mənzil-kommunal təsərrüfatı, tikinti və mənzil istismarı sahəsində müntəzəm islahatlar aparır, vətəndaşların yaşayış şəraitinin yüksəldilməsi istiqamətinə ardıcıl tədbirlər planı həyata keçirir.

Mənzil-kommunal təsərrüfatı ümumilikdə özündə mənzil təsərrüfatını (yaşayış kompleksinin istismarı və xidməti, yaşayış məntəqələrinin abadlaşdırılması, yaşıllaşdırılması) və kommunal xidmətlər sahələrini (su təchizatı və kanalizasiya xidmətləri, istilik, elektrik və qaz təchizatı, məişət tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi, lift xidməti, şəhər elektrik nəqliyyatı, hamam, camaşırxana və mehmanxana təsərrüfatı) əhatə edir. [10]

## NƏTİCƏ

Ümumiyyətlə, sosial müdafiə sisteminin gücləndirilməsi üçün sosial xidmətlərin təkmilləşdirilməsi daha vacibdir. Bunun üçün sosial xidmətlər, onun əsasları, həyata keçirilən vasitələri, vətəndaşların bu xidmətlərdən istifadə imkanları barədə qanunların hazırlanması məqsədəuyğun olar. Hal-hazırda keçid dövrünü yaşayan cəmiyyətimizin əsas problemlərindən biri ictimai inkişafın əsasında duran sosial subyektlərin öz siyasi və sosial mənafelərini tam olaraq dərk edə bilməməsidir. Cəmiyyətin sosial-iqtisadi inkişafı mənəvi dəyərlərin və demokratik prinsiplərin inkişafı ilə əlaqədardır. Ölkə başçısı İlham Əliyevin dediyi kimi, dövlətimizin istəyi ondan ibarətdir ki, "xalqımız daha da yaxşı yaşasın, insanların rifah halı yaxşılaşsın, mövcud olan problemlər aradan qaldırılsın, sosial ədalət prinsipi tam şəkildə bərqərar olsun. Bilirsiniz ki, Heydər Əliyevin siyasətinin əsas istiqamətləri məhz bunlar idi. Azərbaycanda sosial ədalət prinsipi tam şəkildə bərqərar olmalıdır. İnsanları narahat edən problemlər aradan qaldırılmalıdır" [11, s. 386, 387].

**Açar sözlər:** *sosial siyasət, sosial təminat, dövlət proqramı, sosial yardım, səhiyyə sistemi, təhsil sistemi*

### İstifadə olunmuş ədəbiyyat

1. Piriyev A. M., Əfəndiyeva X.B. Sosiologiya və Politologiya fənnindən mühazirə mətnləri. Bakı:"Təhsil" NPM, 2009, 350s.
2. İnkişafın Azərbaycan modeli: İdeya rəhbəri və ön sözün rəhbəri Ramiz Mehdiyev, buraxılışa məsul Bəxtiyar Sadıqov. Bakı: "Oskar" NPM; 2011.
3. Cəfərova V.M. Azərbaycan müstəqillik dövründə: problemlər, perspektivlər. Bakı Şirvannəşr, 2005.
4. Conrad Peter. The shifting engines of medicalization JHSB journal of health and social behavior// Vol.46, N, march 2005.
5. Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. Bakı: "XXI"- Yeni Nəşrlər Evi, 2003.
6. Əliyev H. Azərbaycanda iqtisadiyyatın və sosial sahənin yüksəlişi özəl sektorun inkişafından asılıdır. Bakı: Nurlar, 2002.
7. Zeynalov İ. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və regionların sosial-iqtisadi inkişafı (2003-2008-ci illər) Tarix və onun problemləri, 1997-048, 1-2, Bakı;2009.
8. http://www.sigorta.info.az/sehife.php?pid=3
9. http://muhasib.az/Vergiler/Sosial/Sosial.php
10. http://www.azerbaijans.com/content_757_az.html
11. Mehdiyev R.Ə. Yeni siyasət: İnkişafa doğru. I cild, Bakı: "Oskar" NPM-nin mətbəəsi, 2008.

**Меликли ГЮНЕЛЬ**

## Социальная политика, проводимая в Азербайджанской Республике для совершенствования социального развития.


### Резюме

В конце прошлого столетия, после обретения Азербайджаном независимости, в государственной стратегии развития место и роль социальной стратегии стали очень значимыми. Эта стратегия развития стала важным направлением социальной политики государства. Были достигнуты большие успехи в социальной сфере, которые стали возможными благодаря дальновидной социальной политике, государства. Вообще, социальная политика, ее цели и методы реализации различаются. Проводимая социальная политика подразумевает развитие всех сфер общества и устранение проблем в них базируется на принципах справедливости.


**Ключевые слова:** *социальная политика, социальное обеспечение, государственная политика, социальная помощь, медицинская система, образовательная система.*

**Gunel MELIKLI**

## Realization of Social Policy for improvement of Social development in Azerbaijan Republic


### Summary

At the end of the last century after Azerbaijan gained its independence, the place and role of social policy nave become an essential in the development strategy of the state.

This development strategy formed an important course of social policy realized by the state was in social sphere there was achived great success due to for sighted big state policy. Generally social policy and its purposes are realized by different ways. Realized social policy covers development of all spheres of society and avoiding problems in them, in bases on the principles of equality and justice.


**Keywords***: social policy, social provision, state program, social relief, health system, educational system.*